Yaranışı qədim dövrlərə gedib çıxan Azərbaycanın mədəniyyət, elm mərkəzlərindən biri olan Naxçıvan özündə zəngin irsimizi qoruyub saxlayır.





# Şərq memarlığının inciləri
# Naxçıvan türbələri


Mömünə Xatun türbəsi

**Yaranışı qədim dövrlərə gedib çıxan Azərbaycanın mədəniyyət, elm mərkəzlərindən biri olan Naxçıvan özündə zəngin irsimizi qoruyub saxlayır. Bu irsin mühüm bir hissəsi Şərq memarlığını özündə əks etdirən tarixi abidələrimizdən ibarətdir. Təsadüfi deyil ki, 2011-ci ilin "Turizm ili" elan edilməsi ilə bağlı dövlət başçısı İlham Əliyev tərəfindən təsdiq olunmuş Tədbirlər Planında Naxçıvan Muxtar Respublikasında mövcud olan türbələrin UNESCO-nun Mədəni İrs Siyahısına daxil edilməsi ilə bağlı işlər xüsusi bənd kimi qeyd olunub.**

### Yusif ibn Küseyir türbəsi

Artıq bu sahədə müəyyən işlərin görüldüyünü deyən Mədəniyyət və Turizm Nazirliyinin Mədəni irs şöbəsinin Bərpa layihələndirmə və ekspertiza sektorunun müdiri, memar, sənətşünaslıq namizədi Fazil Məmmədov bəzi materialların UNESCO-nun proqramına uyğunlaşdırılmasının vacibliyini vurğuladı. Hazırda Naxçıvandakı dörd türbə ilə bağlı işlər görülür. Bunlar Yusif ibn Küseyir, Möminə Xatun, Gülüstan və Quda Xatun türbələridir: "Naxçıvan ərazisindəki Yusif ibn Küseyir, Möminə Xatun türbələri orta əsr memarlıq korifeyi Əcəmi Naxçıvani tərəfindən tikilib. Birinci türbə 1161-1162-ci illərdə inşa edilib və xalq arasında Atababa türbəsi və ya Atababa günbəzi də adlanır. Səkkiz əsrdən çox yaşı olan türbə XX əsrin ortalarında bərpa edilib. Bərpa işləri nəticəsində türbənin dağılmış hissələri düzəldilib, mühəndis qurğuları möhkəmləndirilib. Abidə yeraltı sərdabədən və yerüstü qüllevari hissədən ibarətdir. Planda abidənin yerüstü hissəsi daxildən və xaricdən səkkizbucaqlı şəkildədir. Türbədə biz ikiqat günbəz quruluşunun ən görkəmli, bizim zəmanəmizə qədər əvvəlki şəklini mühafizə etmiş və indiyə qədər gəlib çatmış yeganə bir nümunəsini görürük. Yüksək mühəndis həllinin nəticəsidir ki, Yusif ibn Küseyir türbəsi Azərbaycanın qüllevari türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir müddətdə salamat qalan yeganə abidədir".

Qeyd edək ki, türbənin üzərindəki kitabə onun tikilmə tarixini təsdiqləyir. Həmin kitabə türbənin hicri 557-ci ilin şəvval ayı (miladi 1162) tikildiyini bildirir. Əsas fasaddan sol tərəfdəki kitabədə isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" sözləri qeyd olunub.

Fazil müəllimin sözlərinə görə, bu türbənin həm əsas tikintisi, həm də bəzək hörgüsü bir materialla - keyfiyyətli bişmiş kərpiclə işlənib: «Bu da abidənin saya, aydın və təmiz həndəsi biçiminin bütövlüyünü gücləndirir, ona vahid, ifadəli, qırmızımtıl kolorit verir. Kompozisiyasına, tektonik aydınlığına, hissələrinin mütənasibliyinə, mühəndis quruluşunun səviyyəsinə görə türbə yüksək bədii-memarlıq nümunəsidir».

### Nadir gözəllik və zəriflik abidəsi

UNESCO-nun siyahısına salınması nəzərdə tutulan digər abidə Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə Xatun türbəsidir. Abidə 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilib. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Möminə xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar verir, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan 1186-cı ildə başa çatdırıb. Bu abidə xalqın yaddaşında "Atabəy günbəzi" adı ilə qalıb.

F.Məmmədovun sözlərinə görə, türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir: «Sərdabə hissəsi planda onbucaqlıdır. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun arvadı Möminə xatun və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunub. Burada 2003-cü ildə qiymətli daşdan nəfis şəkildə əsaslı bərpa işləri aparılıb. Sərdabə orijinal quruluşlu olub, zəngin tərtibata malikdir. Onun bu quruluşu sonralar Qərbdə, qotika memarlığında tətbiq edilib».

Söhbət əsnasında Fazil müəllim maraqlı bir faktı da diqqətə çatdırdı: «Orta əsr səyyahları, XIX əsrə aid rəsm əsərlərindən və fotoşəkillərdən görünür ki, Möminə xatun türbəsinin yanında monumental tikililər, o cümlədən, Came məscidi, baş tağ olub. Əfsuslar olsun ki, kompleks bizə qədər gəlib çatmayıb».

### Gülüstan türbəsi

Mədəni irs siyahısına salınması nəzərdə tutulan digər abidə isə Culfa rayonu yaxınlığında yerləşən Gülüstan türbəsidir. Abidə Araz çayının sahilində sərhədə yaxın yerdə tikilib. Türbənin digər abidələrdən fərqli olaraq kərpicdən deyil, daşdan tikildiyini deyən mütəxəssis onun Türkiyənin ərazisində olan Səlcuq sülaləsi dövrünə aid kiçik türbələrə bənzədiyini bildirdi: «Abidə XIII əsrdə Möminə Xatun türbəsinin təsiri altında inşa olunub və Azərbaycanın qüllevari türbələri qrupuna daxildir. Türbənin 12 üzlü gövdəsi qırmızı qumdaşından, orijinal quruluşlu kürsülüyü (küncləri kəsilmiş kub formasındadır) isə yonulmuş daşdan tikilib. Azərbaycanın digər türbələrindən fərqli olaraq, Gülüstan türbəsinin sərdabəsi yerüstü hissədə (kürsülü) yerləşir. Kürsülük xaricdən kəsik piramida,


Qarabağlar abidə kompleksi

daxildən silindrik quruluşa malikdir. Türbənin üst çadır örtüyü tamamilə dağılmışdır. Odur ki, bu çadır örtüyünün piramidaya oxşar və ya konik biçimdə olmasını müəyyənləşdirmək çətindir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə bəzədilmiş, dekorativ tağlarla çərçivələnib. Əcəmi Naxçıvaninin türbələrində olduğu kimi, burada da taxçaların içi incə həndəsi naxışlarla örtülüb. On iki üzdə naxışları diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, burada ardıcıllıq yalnız ardıcıl təkrarlanan üç növ həndəsi naxış çeşnisindən ibarətdir. Belə türbələrin geniş yayıldığı ərazi Anadolu olduğuna görə, Gülüstan türbəsini mərkəzi Azərbaycan və Anadolu Səlcuq türbələrinin soy birliyinin baş göstəricisi hesab etmək olar».

### Quda xatun türbəsi

Orta əsr memarlığının ən qiymətli yadigarlarından biri də Naxçıvanın Kəngərli rayonunun Qarabağlar kəndində yerləşir. Quda xatın türbəsi də bu kompleksə aiddir. Qarabağlar abidələri bir kompleks şəklində olub, buraya türbə, qoşa minarə və bu iki abidənin arasında yerləşən dini binanın qalıqları daxildir.

Fazil müəllimin sözlərinə görə, bu kompleksə daxil olan qoşa minarələrin XII əsrin axırlarında və ya XIII əsrin əvvəllərində tikilməsi güman edilir: «Bu iki minarəni bir-birinə bağlayan portal quruluşu isə XIV əsrə aid quruluşdur. Bu kiçik portalın üzərində Qoday xatunun adı oxunur. Bəzi mənbələrə görə, Qoday xatun Hülakülər dövlətinin hakimi olmuş Abaqa xanın xanımı olub. Belə mülahizə yürütmək olar ki, hələ XII-XIII əsrlərdə tikilmiş yeni binalar kompleksinin daxilində Qoday xatunun şərəfinə bu xatirə abidəsini yaratmağı qarşısına məqsəd qoymuş memar, o zaman bu portalı tikib. Belə olduqda Qarabağlar türbəsinin Qoday xatunun xatirəsinə həsr edilməsi imkan daxilindədir».

Qoşa minarənin XII əsrin sonu - XIII əsrin əvvəllərində tikildiyinin ehtimal olunduğunu deyən sektor müdiri minarələri bir-birinə bağlayan baştağın isə XIV əsrə aid olduğunu deyir. Qeyd edək ki, Qarabağlar türbəsinin səthi qırmızı və firuzəyi kaşılı kərpiclə örtülmüş həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilib. Türbənin kompozisiya xüsusiyyəti 4 baştağlı olmasıdır. Bu baştağlar şimal, cənub, qərb və şərq istiqamətlərində yerləşərək türbəyə 4 fasadlı görkəm verir. Baştağların səthi kaşı ilə örtülüb, həndəsi və nəbati naxışlarla bəzədilib. Fazil müəllimin sözlərinə görə, Quda xatun türbəsinin konus şəklində olmuş yuxarı günbəzi və müvafiq kitabələri dağıldığından türbənin tarixini dəqiq təyin etmək mümkün deyildir: «Lakin bütün tədqiqatlar türbənin XIV əsrin əvvəllərində tikildiyini göstərir».

Abidələrin vəziyyətinə gəlincə, Fazil müəllim bildirdi ki, Möminə xatun türbəsi artıq bərpa olunub. Quda xatun türbəsində də Mədəniyyət Nazirliyinin xətti, Dünya Bankının dəstəyi ilə 2004-2005-ci illərdə alman mütəxəssisləri tərəfindən təmir-bərpa işləri aparılıb».


Gülüstan türbəsi

Bir sözlə, Şərq memarlıq inciləri hesab edilən abidələrimizin Dünya İrs Siyahısına salınması, onların UNESCO-nun tələblərinə uyğunlaşdırılması istiqamətində müəyyən işlərə başlanılır. F.Məmmədovun fikrincə, belə bir addım bizə həm də siyasi cəhətdən vacibdir: «Bilirsiniz ki, bizim bədnam qonşularımız öz acgöz baxışlarını indi də Naxçıvana tərəf yönəldiblər. Bütün elmi konfranslarda Naxçıvandan söz açırlar. Guya bu torpaqda ermənilərə aid mədəni irs var. Doğrudur, biz onlara lazımi cavabı veririk. Bu qədim diyarın abidələrini UNESCO-ya daxil etməklə onların Azərbaycana məxsus olduğunu bir daha təsdiqləyəcəyik».

**Mehparə**